Səh. 2 AZƏR MUSAOĞLU YAZIR...
Səh. 2 MARNEULİ VƏ QARDABANİ MAJORİTAR DAİRƏSİNDƏ 14 NAMİZƏD QEYDİYYATDAN KEÇİB
Səh. 3 HACI BƏKİROĞLU YAZIR...
Səh. 4 BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN DƏRSLƏRİ İLƏ BAĞLI TÖVSİYƏLƏR VERİLİB
Səh. 5 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 6 AFİQ MUXTAROĞLU YAZIR...
Səh. 6 ÖLKƏYƏ QAYIDAN GÜRCÜSTAN VƏTƏNDAŞLARI ÜÇÜN KARANTİN QAYDALARI DƏYİŞDİ
Səh. 7 AZAD İQTİSADİ ZONALARIN ÖNƏMİ

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 OKTYABR
2020-Cİ İL
№014 (118)

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GİORGİ QAXARİA: "SON HADİSƏLƏR GÖSTƏRDİ Kİ, "DONDURULMUŞ MÜNAQİŞƏ" MÖVCUD DEYİL"



"Son hadisələr aydın olaraq göstərdi ki, "dondurulmuş" münaqişə mövcud deyil, belə ki, onun olduqca tez "donunu açmaq" mümkündür".

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə baş nazir Giorgi Qaxaria Krallığın Müdafiə Tədqiqatları Birləşmiş İnstitutunun (RUSİ) onlayn formatda təşkil etdiyi müzakirələrdə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan arasında baş verənlər yalnız Gürcüstan üçün deyil, bütün region üçün də əhəmiyyətlidir:

"Üstəlik, biz hesab edirik ki, bu, daha geniş Qara dəniz bölgəsi üçün də risk daşıyır. Məhz buna görə də eskalasiya başlayan kimi biz hər iki ölkə istiqamətində hərbi yüklərin daşınmasına icazələrin verilməsini müvəqqəti dayandırdıq. Əks halda, biz bu və ya digər formada münaqişəyə cəlb olunmaqla bağlı risk edə bilərdik və bu da Gürcüstan üçün qəbuledilməzdir".

Hökumət başçısı xatırladıb ki, Gürcüstan Azərbaycan və Ermənistan arasında Tbilisidə dialoqun təşkili ilə bağlı hazırlığını ifadə edib:

"Biz eyni zamanda qəbul edirik ki, Qərb tərəfdaşlarının dəstəyi regionda gərginliyin azaldılması üçün olduqca böyük əhəmiyyət kəsb edir. Burada, əlbəttə ki, ATƏT-in Minsk qrupu həlledici rol oynamalıdır".

## AMİRAN QAMKRELİDZE: "GÜRCÜSTANDA İKİNCİ DALĞA BAŞLAYIR"



"Gürcüstanda epidemioloji vəziyyət gərginləşib, ikinci dalğa başlayır". Bunu ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri, baş epidemioloq Amiran Qamkrelidze deyib.

Onun sözlərinə görə, ikinci dalğa say baxımından daha güclü, ağırlıq baxımından isə nisbətən yüngüldür.

A.Qamkrelidze bildirib ki, Gürcüstan daxilində yayılma intensiv xarakter alıb: "Buna baxmayaraq, ölkədə genişmiqyaslı məhdudlaşdırıcı tədbirlər olmayacaq. Yalnız lokal məhdudiyyətlərin tətbiqi planlaşdırılır".

Baş epidemioloq, həmçinin, sakinləri soyuqların düşdüyü dövrdə açıq havada da maska taxmağa çağırıb.

O bildirib ki, bu, infeksiyanın yayılma riskini 50-75% azaldır.

"Buna görə də sizdən xahiş edirəm ki, bu sadə qaydaya riayət edin. İkinci qayda – xahiş olunur müəyyən vaxta kütləvi toplantılardan çəkinin. Bir il ərzində izdihamlı toy, yas, doğum günü kimi tədbirlərdən imtina edin. Bu cür tədbirlərin zamanı gələcək, lakin ilk öncə bu dövrü geridə qoymalıyıq", - deyə A.Qamkrelidze bildirib.

*Mənbə: report.az*

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 113 NƏFƏRƏ ÇATIB

Gürcüstanda koronavirusdan ölənlərin sayı 113 nəfərə çatıb. Bu haqda www.stopcov.ge saytında bildirilir.




Oktyabrın 15-nə olan məlumatlara əsasən, ölkədə koronavirusa yoluxanların ümumi sayı 14440 nəfər, sağalanların sayı isə 7367 nəfər təşkil edib.

Ölkə üzrə karantin rejimində 5721 nəfər, stasionar nəzarətdə 836 nəfər olub. COVID mehmanxanada olan şəxslərin sayı 1090 nəfər, xaricdən müalicə üçün ölkəyə gətirilən Gürcüstan vətəndaşlarının sayı isə 41 nəfər təşkil edib.



# MƏNSUBİYYƏT ŞƏKİLÇİSİNİN BİRİNCİ ŞƏXSİN TƏKİ VƏ CƏMİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Kimin üçünsə milli mənsubiyyət qürür mənbəyidir, kimin üçünsə də bunun heç bir əhəmiyyəti yoxdur. Əlbəttə, hər bir insan milli kimliyi ilə fəxr edə də bilər, etməyə də bilər. Bu, şübhəsiz ki, fərdin öz şəxsi işidir. Onu milli kimliyi ilə fəxr etdiyi və ya etmədiyi üçün kimsə qınaya bilməz.

İnsan var, milli mənsubiyyətinə görə ekstaza düşür və digər millətlərin nümayəndələrini qəbul edə bilmir. Başqaları ilə bir ölkədə, şəhərdə, məhəllədə yaşaya bilmir, az qalır əlinə sopadan, yavadan alıb onun dilində danışmayanları, onun dininə inanmayanları, onun rəngində olmayanları planetdən qova. Bu, artıq problemdir. Bu cür insanlar, əlbəttə, qınanmalıdır.

İnsan da var, kimin hansı rəngdə olmasının, kimin hansı dildə danışmasının, hansı dinə inanmasının onun üçün heç bir əhəmiyyəti, önəmi yoxdur. Hətta, insanlar var ki, adamdan hansı millətə mənsub olduğunu soruşanda alçaq səslə, utana-utana üzr istəyərək soruşur. Və az qala adamın alnına və ya vaxtı ilə alman nasistlərinin, faşistlərinin elədiyi kimi, adamın əlbisəsinə milli kimliyi göstərən bir nişan yapışdırmaq, damğa vurmaq istəyənlər də var. Məsələn, “Gürcü marşı” partiyası kimi.

Bu partiya Gürcüstan vətəndaşlarının (!) şəxsiyyət vəsiqələrində milliyətin göstərilməsi təklifi ilə parlamentdə çıxış edib. Parlamentin Prosedur qaydaları komitəsinin iclasında məsələyə baxılıb və bildirilib ki, “təşəbbüsün qanun layihəsi kimi qeydiyyata alınması və qanunverici orqanda müzakirəyə çıxarılması üçün təşəbbüs qrupu 45 gün ərzində ən azı 25 min imza toplamalıdır”. Təklifə görə, vətəndaşların şəxsiyyət vəsiqələrinə milliyət qrafasının əlavə olunması və könüllülük əsasında bu bölmənin doldurulması nəzərdə tutulur.

Ölkənin bütün problemləri həll olunub, düzəlib hər yarağımız, qalıb bircə saqqal darağımız. Yəni bu boyda ölkədə həlli müzakirə olunası başqa problem başınıza qəhətdirmi, cənablar. Həqiqətənmi kimin hansı millətdən olması sizi ölkə səviyyəsində narahat edir? Bu axı Avroatlantik məkana daldala “inteqrasiya” etməkdir (İstədiyiniz də budur zatən). Axı Avropanın hüququnda “etnik mənsubiyyət” anlayışı çoxdan yoxdur. Bu ölkədə yaşayan başqa millətlərin nümayəndələri tam hüquqlu vətəndaş olmaq çabasında bulunarkən, sizlər “Marş, irəli!” bağıraraq ayrı-seçkiliyi sənədləşdirmək istəyi ilə “Marş, geri!” basırsınız – Sovet babanızın yanına.

Şəxsiyyət vəsiqələrində milli kimliyin yazılması ayrı-seçkiliyin ən pis formasıdır, rəsmi formasıdır, ilk növbədə milli azlıqların hüquqlarının pozulmasıdır. Və bu, Avropaya üz tutmuş Gürcüstan üçün tənəzzül deməkdir.

İndi ayrı-seçkilik salanları, diskriminasiyanı özünə peşə edən irqçiləri, nasistləri linqvistik qaydada müəyyən etmək çox asandır. Onlar danışanda mənsubiyyət şəkilçisinin yalnız birinci şəxsin təki və cəmindən istifadə edirlər. Vətəndaş olmaq üçün isə şəxsiyyət vəsiqəsində milli mənsubiyyət deyil, ölkə mənsubiyyətinin göstərilməsi yetərlidir.

Hə, bir də, marş alman dilində xəndək deməkdir. Bunu isə elə-belə yazdım.

# AZƏRBAYCAN SƏFİRLİYİ GÜRCÜSTAN AZƏRBAYCANLILARINA MÜRACİƏT EDİB

Azərbaycanın Gürcüstandakı səfirliyi Gürcüstan azərbaycanlılarına müraciət edib.

Müraciətdə Azərbaycan dövləti və Silahlı Qüvvələrinin onların qarşısında duran vəzifənin öhdəsindən gəlmək üçün bütün lazımi imkanlara malik olduğu bildirilib.

Qeyd olunub ki, bu baxımdan, ölkə kənarından könüllülərin cəlb olunmasına, eyni zamanda, əşya və əmtəə timsalında humanitar yardım və ianələrə də ehtiyac duyulmur.

Müraciətdə vurğulanıb ki, maliyyə ianələri etmək istəyən şəxslər isə onu Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu vasitəsilə həyata keçirə bilərlər.

Səfirlik həmçinin nəzərə çatdırıb ki, yerlərdə onun adından və ya Azərbaycanın digər dövlət qurumları adından pul vəsaitinin toplaması həyata keçirilmir və bu səpkidə səsləndirilə biləcək kimi çağırışlar əsassızdır.




Diplomatik nümayəndəlik soydaşlarımızı mövcud şəraitdə vəziyyətə anlayışla yanaşmağa, ayıq-sayıq olmağa, mümkün təxribatlara uymamağa və Gürcüstanın qəbul olunmuş norma və qanunlar çərçivəsində fəaliyyət göstərməyə çağırıb: “Sizin mənəvi dəstəyiniz, bu günlərdə də həmişə olduğu kimi, Azərbaycanla birgə durmağınız göz qabağındadır”.

*Mənbə: report.az*

# MARNEULİ VƏ QARDABANİ MAJORİTAR DAİRƏSİNDƏ 14 NAMİZƏD QEYDİYYATDAN KEÇİB

Gürcüstanın Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən, 2020-ci ilin parlament seçkiləri üçün Marneuli və Qardabani majoritar dairəsində 14 namizəd qeydiyyatdan keçib.

Namizədlərin siyahısı belədir:

N2 “Bakradze, Uqulava, Bokeria – Avropalı Gürcüstan – Azadlıq naminə hərəkat” – Əhməd İmamquliyev;

N4 “Davit Çiçinadze – Tribuna” – Aşot Muradyan;

N5 “Vahid Milli Hərəkat – Birləşmiş Müxalifət “Güc Birlikdədir” seçki bloku – Azər Süleymanov;

N8 “Davit Tarxan-Mouravi, İrma İnaşvili – Gürcüstan Vətənpərvərlər Alyansı” – Mahir Yusubov;

N10 “Şalva Natelaşvili – Gürcüstanın Leyboristlər Partiyası” – Əli Bədirov;

N19 “Bizim Gürcüstan – Həmrəylik Alyansı” siyasi vətəndaş birliyi – Tamar Çoniaşvili;

N20 “Gürcüstan” – Gülsəfa Ayvazova;

N21 “Azad Gürcüstan (Kaxa Kukava, Giorgi Tsulaia)” – Natalia Qelazonia;



N30 “Gürcüstanı dəyiş” – Avtandil Okrotsvaridze;

N41 “Gürcü arzusu – Demokratik Gürcüstan” – Zaur Dargəllı;

N44 “Levan Çaçua, Quram Palavandişvili – Gürcü ideyası” – Oleqi Devadze;

N50 “Proqressiv Gürcüstan” – Qacar Hüseynov;

N55 “Gürcü marşı – Milli Hərəkatı” – İsfəndiyar Kərimov;

N56 “Lelo – Mamuka Xazaradze” – Murad Muradov.

Qeyd edək ki, parlament seçkiləri oktyabrın 31-də keçiriləcək.

# DAVİD ZALKALİANİ ERMƏNİSTANIN BTC-YƏ HÜCUM CƏHDİNƏ MÜNASİBƏT BİLDİRİB

“Strateji obyektlər bölgənin təhlükəsizliyinin qarantıdır. Buna görə də hamı onların normal fəaliyyətinə təhlükənin olmamasında maraqlıdır”. Bu barədə Gürcüstanın Xarici işlər naziri David Zalkaliani Bakı-Tbilisi-Ceyhan neft kəmərinə Ermənistanın raket hücumu cəhdini şərh edərkən bildirib.

Nazir bu cür obyektlərə hərbi təsirin olmamasının vacib olduğunu deyib: “Enerji təhlükəsizliyini təmin edən Bakı-Tbilisi-Ceyhan kəməri region və beynəlxalq tərəfdaşlar üçün önəmli strateji obyektdir”.

XİN başçısının sözlərin görə, Cənubi Qafqazda həyata keçirilən önəmli layihələr Gürcüstanın maraq dairəsindədir və bu istiqamətdə baş verən proseslər daima izlənilir: “Biz bölgədə tərəfdaş, strateji obyektlərin yerləşdiyi ölkələrlə, həmçinin strateji tərəfdaşlarımız olan ABŞ və Avropa İttifaqı ilə də məsələ ilə bağlı danışıqlar aparırıq”.

Xatırladaq ki, oktyabrın 6-da axşam saatlarında Ermənistanın silahlı qüvvələrinin Yevlax rayonu ərazisində BTC neft kəmərini hədəf alan raket zərbələrinin qarşısı alınıb. Hazırda ixrac kəməri əvvəlki kimi fəaliyyətini davam etdirir, amma hadisə ilə bağlı cinayət işi başlanılıb.

## TÜRKİYƏ GÜRCÜSTANA DƏRMAN PREPARATLARI, PCR TESTLƏR VƏ NƏFƏS APARATLARI VERİB



Türkiyə Gürcüstana tibbi avadanlıq, dərmanlar, PCR testlər, nəfəs aparatları və fərdi mühafizə vasitələri verib.

Gürcüstanın Xarici İşlər Nazirliyinin məlumatına görə, Türkiyə Cümhuriyyətinin bu addımı Gürcüstan əhalisinə, xüsusən də Rusiya-Gürcüstan münaqişəsi nəticəsində zərərçəkmiş insanlara koronavirus pandemiyası zamanı yardım göstərmək məqsədi daşıyır.

Qurumun məlumatına görə, pandemiya şəraitində Gürcüstanın işğal edilmiş ərazilərində humanitar vəziyyətin daha da çətinləşdiyi bir vaxtda bu olduqca əhəmiyyətlidir.

Nazirliyin məlumatına əsasən, humanitar yükün böyük hissəsi məhz Rusiya-Gürcüstan münaqişəsi nəticəsində zərərçəkmiş insanların ehtiyaclarını ödəmək üçün sərf olunacaq.

*Mənbə: on.ge*

## “TÜRK DÜNYASI ONLAYN MEDİA TƏHSİL PROQRAMI”INDA GÜRCÜSTANDAN DA MEDİA TƏMSİLÇİLƏRİ İŞTİRAK EDİBLƏR







Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB) və Türkiyənin Anadolu Agentliyinin (AA) əməkdaşlığı ilə 5-14 oktyabr tarixində “Türk Dünyası Onlayn Media Təhsil Proqramı” adlı onlayn təlimlər keçirilib.

“Yeni Yol” xəbər verir ki, Əfqanıstan, Azərbaycan, Gürcüstan, İran, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Rumıniya, Rusiya və Ukraynadan təlimlərə qatılan 29 media təmsilçisi arasında Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) əməkdaşları da olub.

On gün davam edən təlimlərdə Anadolu Agentliyinin Xəbər Akademiyasının 6 tanınmış siması iştirakçılara internet xəbərçiliyi, xəbər və xəbər yazma texnikası, foto və video çəkmə üsulları, sosial media və infoqrafika ilə bağlı toplam 20 saat təlimlər keçmişlər.

Təlimlərdən sonra iştirakçılara sertifikatlar verilmişdir.

## NOYABRDAN ETİBARƏN BEYNƏLXALQ AVİAUÇUŞLAR BƏRPA EDİLƏCƏK



Baş nazir Giorgi Qaxarianın bildirdiyinə görə, Gürcüstan noyabrdan etibarən beynəlxalq aviauçuşların tədricən bərpasına qərar verib.

Baş nazir bildirib ki, oktyabrın sonundan Paris və Münhen istiqamətləri üzrə mövcud reyslərin sayının artırılması planlaşdırılıb, noyabrdan başlayaraq isə həm Tbilisi, həm də Kutaisidən Avropa istiqaməti üzrə birbaşa reyslər açılacaq.

## ÖZGƏ GÖZÜNDƏ TÜK AXTARMAQ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Hər bir millətin keçmişini simgələyən və qədimliyini əks etdirən tarixi abidələri və dini mənsubiyyətlərini bildirən ibadətgahları vardır. Həmin bu tarixi abidələr və ibadətgahlar hər bir millətin qorumağa çalışdığı və müqəddəs saydığı yerlərdir. Odur ki, nə İslam aləmində, nə də türk kimliyində heç zaman heç bir dini məkanlar və tarixi abidələr məhv edilməmiş, əksinə qorunmağa çalışılmışdır. Bu, istər tarix boyu İslam və türk dövlərləri tərəfindən olsun, istərsə də bugünkü zamanda olsun, qorunmağa çalışılmış faktlardır. Çünki İslam dininə mənsub şəxslər Qurani-Kərimdə zikr olunan “Allahın məscidlərində Onun (Allahın) adının çəkilməsinə maneəçilik törədənlərdən və onların xarab edilməsinə (dağılmasına) çalışanlardan daha zalım kim ola bilər?...” (Bəqərə, 2/114) ayəsinin fərqindədirlər. Bunun üçün də hər hansı bir İslam ölkəsinə diqqət etsəniz orada yaşayan hər bir din mənsubunun ibadət evinə asanlıqla rast gələrsiniz. Əksinə, hər zaman müsəlmanların ibadətgahları, məscidləri, tarixi və mədəni irsləri məhv edilməyə çalışılmışdır.

Son bir neçə gündür ki, Azərbaycan və Ermənistan arasında gedən döyüşlər nəticəsində Azərbaycan, Dağlıq Qarabağ ərazisində bir çox tarixi abidələr və ibadətgahlar dağıdılmışdır. İlk olaraq nəzər salası olsaq Ermənistan ordusunun Şuşanı işğal edən zaman məscidi dağıdıb və ərazini xaraba vəziyyətə saldığını diqqətdən qaçırmamalıyıq.

Yəqin ki, başa düşdünüz söhbət nədən gedir. Bu yaxınlarda rus televiziyasında yayımlanan kanallardan birində Azərbaycanın xalq yazıçısı Çingiz Abdullayevin qonaq olduğu bir verilişdə Şuşadakı bir kilsənin bombalandığı haqqında sual edildi. Yazıçı orada gözəl cavab verdi. Bu hadisənin hər halda bir təsadüf nəticəsində baş vermiş olduğunu vurğuladı. Bununla birlikdə, onların diqqətini Azərbaycanda var olan məxtəlif dinlərin ibadətxanalarının var oluşuna, onların yenidən bərpasına çəkməyə çalışdı.

Bu televiziyanın və ya aparıcıların tərəf saxlamamasını birilərinin bunlara başa salması lazımdır. Bu kimi televiziya kanalları eyni Şuşa şəhərindəki məscidin içərisinə mal-qara doldurularkən hardaydılar görəsən? Niyə susqun düşmüşdülər? Uzaq tarixə getməyə heç ehtiyac da yoxdur. Son bir neçə ildə dünyanın müxtəlif bölgələrində məscidlərə olan hücumlar və törədilən qətllər bu insanların heçmi diqqətini cəlb etmədi? Suriyada, İraqda dağıdılan məscidlərdən, mədrəsələrdən xəbəri olmayan olmaz hər halda.

Görəsən doğrudandamı bu cür şəxslərin bu gün İslam dünyasında törədilən təxribatlardan xəbərləri yoxdur? Qüdsdəki Məscidi-Əqsaya müsəlmanların buraxılmadığından doğrudandamı bixəbərdilər? İndi sizlərə sual edirəm, gəlin görək kim təxribat törədir? Bu qədər məscidlər, ibadətxanalar, mədrəsələr dağıdılarkən niyə səsiniz çıxmırdı? Bu, öz gözündə kərəni görməyib, özgə gözündə tük axtarmaqdı.

Onu da qeyd edim ki, həmin verilişdə yazıçı dəfələrlə Gəncəyə atılan və qətl edilən dinc əhalini də dilə gətirdi. Ancaq o movzudan qaçmağa çalışdılar. Çünki onlar Azərbaycan ordusunun haqlı olan torpaq savaşını qəbullana bilmirlər. Öz törətdikləri qətlləri görməyənlər türk dünyasını qatil kimi qələmə vermək istəyirlər. Ancaq dünya bir zaman bu həqiqətləri görəcək.

# BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN DƏRSLƏRİ İLƏ BAĞLI TÖVSİYƏLƏR VERİLİB



**Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi resurs mərkəzlərə, ictimai və özəl məktəblərə bədən tərbiyəsi və idman dərsləri zamanı koronavirusdan qorunmaqla bağlı tövsiyələrdən ibarət sənəd göndərib. Sənəddə deyilir:**

Xahiş edirik, təqdim edilmiş tövsiyələri tabeçiliyinizdə olan ictimai və özəl məktəblərə çatdırasınız. Bədən tərbiyəsi və idman dərsləri qeyd olunan tövsiyələrə uyğun şəkildə keçirilsin.

Bədən tərbiyəsi və idman dərslərini açıq məkanda bütün sinfin iştirakı ilə keçirmək mümkündür;

Bədən tərbiyəsi və idman dərslərinin açıq məkanda keçirilməsi zamanı əlçatan yerdə əl üçün antiseptik vasitələr yerləşdirilsin;

**Qapalı məkanda bədən tərbiyəsi və idman dərslərinə hazırlıq hissəsinin keçirilməsi bütün sinfin iştirakı ilə 1 metrlik məsafəni qorumaqla mümkündür.**

Əgər qapalı məkanda bədən tərbiyəsi və idman dərslərində sinifdə şagirlərin sayı 20-dən çox olarsa, zalın sahəsi isə 180 kvadratmetrdən az olarsa dərsin əsas hissəsi sinfi iki qrupa bölməklə (bir qrup fiziki fəallıqlara qoşulmalı, digər qrup isə 1 metrlik məsafəni qorumaqla onlar üçün xüsusi ayrılmış yerlərdə oturmalıdır) keçirilməlidir. Müəyyən vaxtdan sonra qruplar yerlərini dəyişməlidir. Zalın sahəsi 180 kvadratmetrdən artıq olarsa sinfin tam iştirakı ilə 1 metrlik məsafə saxlamaqla dərsi keçmək mümkündür.

Qapalı məkan sahəsi 288 kvadratmetr və daha artıq olan ümumtəhsil müəssisələrində (12x24-ə və başqa zal nəzərdə tutulur) sahənin iki hissəyə bölünməsi ilə (məkanlar bir-birindən lent, yaxud başqa vasitə ilə bölünməlidir) eyni zamanda iki sinfin bədən tərbiyəsi və idman dərslərində iştirakı mümkündür (dərs keçilən zaman yuxarıda verilmiş tövsiyələr nəzərə alınmalıdır);

Baza-orta pillədə bədən tərbiyəsi və idman fənni üçün ayrılmış 2 həftəlik saatdan ola bilsin 1 saatı məktəb sahəsində fiziki fəallıqlarla keçirilsin, 1 saatı isə distant təhsilə ayrılsın (distant təhsil zamanı layihələrin hazırlanması və təqdimatı, eləcə də fiziki fəallıqların həyata keçirilməsi mümkündür);

**İbtidai siniflər üçün bədən tərbiyəsi dərslərinin keçirilməsi ən azı 1 metr məsafə saxlamaqla qeyd olunan sonrakı məkanlarda mümkündür:**

- İdman zalı;
- Açıq meydança;
- Dəhliz;
- Akt zalı;
- Sinif otağı;
- Foye;
- *Başqa.*

İbtidai sinif müəllimləri (I-IV sinif) siniflə birgə təşkil edilmiş qaydada məktəbin həyətində 15 dəqiqəlik gəzintiyə çıxa bilərlər (pis hava şəraitində gəzinti məktəbin qapalı məkanında keçirilə bilər).

**Qeyd: gəzinti zamanı sonrakı fəallıqların həyata keçirilməsi mümkündür (1 metrlik məsafəni qorumaqla):**

- Məşqlər (gəzinti);
- Ümumi inkişaf məşqləri (yuxarı əzələlərin, bel və aşağı əzələlərin məşqləri);
- Hərəkətli oyunlar (mümkün olan halda).

**Təhlükəsizliyin qorunması məqsədi ilə bədən tərbiyəsi və idman müəlliminə yardım göstərə bilər:** başqa bədən tərbiyəsi və idman müəllimi, sinif rəhbəri, məktəbin digər müəllimi/əməkdaşı.

Dərs prosesində idman növünün spesifikliyindən irəli gələrək idman ləvazimatlarından istifadə oluna bilər, məsələn, top və sair kimi. Ancaq dərs prosesi başa çatdıqdan sonra idman ləvazimatlarının hamısı dezinfeksiya edilməli və şagidlər, müəllimlər əllərini gigiyenik vasitə ilə yumalıdırlar.

**Qapalı məkanda dərs prosesi zamanı idmanın qeyd olunan növləri tövsiyə olunur:** masaüstü tennis, badminton, atletika, gimnastika, tennis, voleybol və hərəkətli oyunlar. Ancaq basketbol, futbol, həndbol, reqbi və idmanın digər növlərinin yalnız texniki elementlərinin tədrisi mümkündür. Belə ki, şagirdlər arasında təmas minimuma endirilməlidir.

Ümumtəhsil müəssisələrinin idman zallarının geyim otaqlarında asılqanlar 1 metrlik məsafəni qorumaqla düzəldilməlidir. Şagirdlər əyinlərini dəyişərkən təşkil edilmiş ardıcıllığa və 1 metrlik məsafəyə əməl etməlidirlər.

*Tövsiyələr L.Sağvarelidze adına Xəstəliklərə Nəzarət və İctimai Səhiyyə Milli Mərkəzi ilə əməkdaşlıq nəticəsində hazırlanıb.*

*Mənbə: etaloni.ge*

# 5 OKTYABR BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜDÜR




5 oktyabr Beynəlxalq Müəllimlər günüdür. Bu gün dünyanın 100-dən çox ölkəsində qeyd olunur.

Müəllimlər gününün əsas məqsədi müəllimlərə dəstək olmaq və onlara ictimaiyyətə verdikləri töhfə üçün minnətdarlıqdan ibarətdir.

UNESCO-ya əsasən, Beynəlxalq Müəllimlər gününün qeyd olunması öz mənbəyini 1994-cü ilin 5 oktyabrından götürür. Ona qədər isə, 1966-cı ilin 5 oktyabrında UNESCO və beynəlxalq əmək təşkilatları tərəfindən dəvət olunmuş konfransda "müəllimlərin vəziyyəti" haqqında tövsiyə hazırlanır. Bu, müəllimlərin əmək şərtlərini müəyyən edən ilk beynəlxalq sənəd olur.

1997-ci ilin 5 oktyabrında UNESCO-nun Baş Konfransı ali təhsil müəssisələri pedaqoqlarının statusu haqqında tövsiyələr qəbul edir.

2015-ci ildə dünya müəllimlər gününün qeyd olunması tədbirində həmin günün əsas devizi səsləndirilir: "Müəllimlərin hüquq və imkanlarının genişləndirilməsi. Davamlı bir cəmiyyət yaratmaq".

***Gec də olsa, "Yeni Yol" bütün müəllimləri təbrik edir, onlara şərəfli işlərində bol-bol uğurlar arzulayır!***

# 2020-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ QALİBİ MƏLUM OLUB



2020-ci ilin Milli Müəllim Mükafatını Abxaziyanın 10 saylı ictimai məktəbinin tətbiqi və təsviri incəsənət, gürcü dili və ədəbiyyatı müəllimi Sopio Qoqoxia qazanıb.

Ona mükafat olaraq kampaniyanın baş sponsoru – "Qudavadze-Patarkatsişvili Fondu" tərəfindən **10 000** (on min) lari veriləcək.

***Milli Müəllim Mükafatının finalçılarının siyahısı belə idi:***

- **Sopio Qoqoxia** – Abxaziyanın 10 saylı ictimai məktəbinin tətbiqi və təsviri incəsənət, gürcü dili və ədəbiyyatı müəllimi;
- **Marine Vartumaşvili** – Qori şəhərinin 12 saylı ictimai məktəbinin coğrafiya müəllimi;
- **Ana Kintsuraşvili** – Tbilisi "Koral" özəl məktəbin riyaziyyat müəllimi;
- **Teona Şerazadaşvili** – Oni bələdiyyəsinin Qari və Simon Sxirtldadze adına Oni şəhər ictimai məktəbinin gürcü dili və ədəbiyyatı müəllimi;
- **Elza Xarşiladze** – Saçxere bələdiyyəsinin Niqviziani ictimai məktəbinin fizika müəllimi.

Qeyd edək ki, Milli Müəllim Mükafatının əsası Təhsil Koalisiyası, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz və Təhsil və Elm Nazirliyi arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 may tarixində qoyulub. Qeyd olunan təşəbbüs Gürcüstanda artıq dördüncü dəfədir həyata keçirilir və müəllimlərin məşhurlaşdırılmasına istiqamətlənmiş qlobal kampaniya – "The Global Teacher Prize"ın bir hissəsidir.

Dörd il ərzində müsabiqəyə 500-dən artıq müəllim qoşulub. Milli Müəllim Mükafatının münsiflər heyəti sahə nümayəndələrindən və ictimaiyyət üçün tanınmış simalardan ibarətdir. Onlar bir-birindən asılı olmayaraq sistem vasitəsilə hər bir müəllimin aplikasiyasını qiymətləndirirlər və nəticədə reytinq müəyyən olunur.

*Mənbə: etaloni.ge*

-------------------------------------------

*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## AMKROBA (HƏMKARLIQ)

*(əvvəli ötən sayda)*

Şərqdə güclü və qüdrətli bir şah var idi. Bir dəfə o öz məmləkətini dolaşmaq və onu gözdən keçirmək niyyətinə düşür. Səfər zamanı bir kənddə adi sənətkar qızı olan gözəl bir qadın görür. Onun gözəlliyini və xeyirxahlığını həddindən artıq bəyənir və onu özünə arvad etmək istəyir. Adətə görə, onu ata-anasından istəmək lazım idi. Buna görə şah elçi göndərir. Elçi qızın atasına şahın istək və niyyətini bildirir, fikirləşir ki, qızın atası sevincdən yerə-göyə sığmayacaq, lakin sənətkar başqa bir düşüncəyə malik adam idi. Şahın kürəkənliyini başqası çox böyük xoşbəxtlik hesab edərdi. Sənətkar isə nəinki sevinmədi, hətta incidi də; diksindi, kədərləndi və nəhayət elçiyə rədd cavabı verdi: *"Mənim qızımı istəyənin, şəksiz, əlində bir peşəsi olmalıdır. Başqaları fikirləşirlər ki, şahlıq bütün peşələrdən üstündür, lakin şahlıq möhkəm peşə deyildir. Bu gün şah taxtında oturur və hökm sahibidir, sabah ola bilsin ki, taxtından onu yıxsınlar, onun sarayını viran etsinlər və əliboş qoysunlar. Əlindən bir şey gəlmədiyi halda nə edə bilər, arvad-uşağını necə dolandıra bilər? Peşəni bilən insan isə həmişə başını dolandıracaq. Sənətkarın biliyini ondan heç kim oğurlaya, əlindən ala bilməz"...*

Elçi geri qayıtdı və şaha sənətkarın cavabını çatdırdı. Şah həddindən artıq ağıllı və mərhəmətli idi. O, nəinki qəzəblənmədi, hətta təəccübləndi də. Sənətkarın sözləri onu düşündürdü, o bunları haqlı və həqiqi söz olaraq qəbul etdi. Şahın bundan sonra sənətkarın qızı ilə evlənmək istəyi daha da artdı. Bu cür ağıllı atanın, güman ki, qızı da dərrakəli olar, – deyə düşündü. Ürəyinin istəyinə, niyyətinə necə nail ola bilərdi? Sənətkar öz qızını xoşu ilə vermirdi və zorla onu almağı isə şah özünə rəva görmürdü. Şah sənətkarın istəyinə əməl etməyə başladı. Çox qısa bir zamanda qəşəngcə xalça toxumağı və üzərində təsvirlər hörməyi öyrəndi. Şah öz əli ilə toxuduğu xalçanı gələcək qayınatasına göndərdi. Şahın əl işi sənətkarın çox xoşuna gəldi və qızını ona verməyinə razı olduğunu bildirdi. Şah təmtəraqlı bir toy etdi.

Şah öz arvadı ilə xoşbəxt və şən bir ömür sürürdü. Ona öz peşəsindən əl çəkdirdiyi qayınatası da yanında yaşayırdı. Kürəkən şah sənətkar qayınatasına ötən vaxtları tez-tez xatırladır və onun israrla rədd cavabı verməsinə gülürdü. Lakin tezliklə bir hadisə tamamilə sənətkarı doğrultdu və sənət öyrənməyin necə bir xəzinə olduğunu aydın şəkildə şaha göstərdi.

Saray adamları hər gün məmnunluqla şaha məlumat verirdilər ki, onun təbəəliyində olanlar öz talelərindən çox razıdırlar və daim şaha dua edirlər. Lakin şah bu sözlərə nədənsə inanmırdı. O, şübhə içində idi ki, vay o günə ki, əgər mənim məmləkətimdə çoxlu yaramazlıqlar cövlan etsin və mənim məmurlarımın üzündən camaat



qəm-qüssə, əzab-əziyyət içində olsun. Gerçək xəbəri bilmək üçün bir dəfə şah öz məmləkətini xəlvəti dolaşmaq və hər şeyi gözdən keçirmək istədi. Kəndli libasını geyindi, əlinə əsa aldı və qərib dərviş kimi kəndbəkənd, şəhərbəşəhər piyada gəzməyə başladı. Az getdi, üz getdi, dərə-təpə düz getdi, nəhayət, haldan düşmüş şah bir aşpaz dükanının həyətinə girdi. Onu yoxsul bir libasda görəndə bir dərviş kimi yol gələn bu adamı bəzəkli bir otağa apardılar və ona yemək təklif etdilər. Şah taxta çıxdı və bardaş qurdu. Elə yeməyə yenicə başlamışdı ki, taxt dərhal aşağı buraxıldı və şah bir qaranlıq və dərin zirzəmiyə düşdü. Bir azdan sonra zirzəmiyə balaca bir deşikdən düşən işığın sayəsində şah öz ətrafını ayırd etdi və gördü ki, zirzəmi başı vurulmuş insanlarla doludur. Şahın başına od ələndi, bilmirdi nə etsin. Bu zaman qəzəblənmiş halda birisi xəncəri siyirib şahın üstünə qışqıraraq: "Ölümünə hazırlaş" – dedi. Şah ona dedi: "Allah bilir və sənin özün də görürsən ki, heç bir günah iş görməmişəm, mən yazıq bir bəndəyəm, de görüm, məni öldürməklə əlinə nə keçəcək? Əgər məni sağ buraxsan, mən elə bir sənətkaram ki, səni varlı edə bilərəm. Mənə ipək və rəngli ipək ipi gətirin. Mən yaşayışımı burada keçirəcəyəm, qəşəng xalçalar toxuyacağam, üzərində cürbəcür dəyərli təsvirlər hörəcəyəm. Sonra siz bu xalçaları baha qiymətə satacaqsınız və varlanacaqsınız". Quldur varlanacağından sevinərək onu öldürməkdən vaz keçdi və ürəyində fikirləşdi: Toxuma materiallarını gətirərəm və əgər məni aldatsa, burada əlimdə deyilmi, daha çox əzab-əziyyətlə öldürərəm".

Şaha ipək və ip gətirdilər. Şah oturdu, doğrudan da elə bir qəşəng və qiymətli xalça toxudu ki, quldur təəccüblə öz-özünə dedi: "Bunun dəyərini yalnız şah ödəyə bilər, axı, başqa kim bunu ala bilər." Quldur sevindiyindən yerə-göyə sığmırdı, lakin onun bu sevinci uzun çəkmədi. Bu quldur bir gün səhər yerindən durdu, xalçanı qoltuğuna vurub birbaş şahın sarayına apardı. Sarayda onu vəzir qarşıladı, gətirilən xalçanı yoxladı, hörülmüş təsvirlərlə güllər arasında naxışlanmış sözlər onun diqqətini çəkdi. Çözələdi və şahın başına gələnlərdən halı oldu. Vəzir dərhal zorba qulluqçularını çağırdı və bu yalançı tacirin əl-qolunu bağlatdı. Vəzir ona şahın əhvalatını və onun işgəncələrini söyləyəndə quldurun başına od ələndi. Camaat tərpəndi, şahı dardan qurtardı və quldurun evini alt-üst etdi. Günahkarlara isə layiqli cəzasını verdilər. Şah bundan sonra bütün həyatı boyu qayınatasının dərrakəsinə minnətdar idi və söyləyirdi ki, sənəti adi insan da, şah da bilməlidir.

***

Biz bu nağılı ona görə xatırlatdıq ki, onun məğzi, qayəsi şəhər sakinlərinin canına, qanına hopmuşdur.

Şəhərin kasıb əhalisi peşəyə böyük əhəmiyyət verirdi. Buna görə də, onlar özlərinin azyaşlı oğullarını bəzən lap elə uşaqlıqdan hansısa bir ustaya tapşırırdılar ki, peşənin nə olduğunu öyrənsin, "bir loxma çörəyi" daim olsun və necə deyərlər "adam olsun".

Öz uşaqlarını şəyird kimi təhvil verən valideynin ustaya ilk müraciəti belə başlayırdı: ""Əti sənin, sümüyü mənim", uşağımı öyrət, usta!"

Demək lazımdır ki, çox hallarda şəyird zəngin ailədən də çıxırdı. Varlı ata öz oğlunu qəsdən kasıb sənətkara təhvil verirdi ki, uşağı həyatın qədrini bilsin *(Qeyd etmək lazımdır ki, şəyirdin halallığını sınamaq üçün sənətkarların belə bir adətləri var idi: Dükanda qəsdən yerə pul atardılar və xəlvəti onu güdərdilər, görək şəyird dükanı süpürən zaman bu pulu özü üçünmü götürəcək, yoxsa ustayamı qaytaracaq!).*

Bu baxımdan amkroba müxtəlif xarakterik qaydanın, adətin və vərdişin əlaqədar olduğu köhnə vaxtların peşə təşkilatı olaraq həddindən artıq maraqlıdır.

Biz bu amkrobaya bir az ətraflı toxunacağıq.

Köhnə vaxtlar bu peşə təşkilatı "Amkari" adlandırılmırdı, bu cür birlik "Tabun", *("Dasturlamali", P.Umikaşvilinin redaktəsi ilə, 1886-cı il, səh. 64)* bəzən isə "Əsnaf" adlandırılırdı *("Gürcüstanın qədimlikləri", II cild, səh. 528).*

Professor İ.Cavaxişvili Gürcüstanda amkrobanın quruluşunun başlanğıcını VIII əsrə aid edir. Belə ki, "Ərəbistan xilafətində həmkarlar artıq səkkizinci əsrdə mövcud idi, biz də bilirik ki, Gürcüstanda şəhər quruluşuna ərəblərin təsiri var idi. Buna görə də, düşündürücü haldır ki, həmkarlar Tiflisdə hər halda gərək ki, olmalıdırlar" *("Gürcüstanın iqtisadi tarixi", 1907-ci il, səh. 40).*

N.Berdzenovun dediyinə görə, "amkroba bizə İrandan keçib" *("Тифлис в историческом и этнографическом обшениях", 1930-cu il, səh. 139).*

İstər elə olsun, istər belə, ümumxalq tərəfindən qəbul edilibdir ki, bizdə amkroba yad millətin təsiri ilə inkişaf etdi. Elə VI əsrin özündə Mtsxeta və Tiflisdə artıq fars sənətkarlar görünür. Fəqət biz bilmirik ki, bu sənətkarlar hansı həmkarda idi, bir ittifaqda, yoxsa bir-iki sənətkar olaraq bizim torpaqda gəzib-dolaşırdılar!

Lakin biz indi amkrobanın əmələ gəlməsinin ayırd edilməsinə başlamayacağıq. Oxucunun diqqətini yalnız bu təşkilatın bəzi adət və ənənələrinə yönəldəcəyik. *(Bu materialın çox hissəsi köhnə vətəndaşlardan toplanılıb. Onların söylədiklərinə, müxtəlif müəlliflərin əsərlərində səpələnmiş materiala uyğun şəkildə tənqidi olaraq yoxladım. Bu müəlliflər bunlardır: П.Шанииев – "Два слово об амкаре", 1857-ci il; Ю.Ахвердов – "Тифлисские амкары", 1883-cü il; С.Егизаров – "Городские цехи" ("Записки кавказск. отдела Русск. географ. об-ва", кн. XIV, вып. II, 1891-ci il; G.Qamkrelidze – "Gürcüstanda sənətkarlıq", 1926-cı il və İ.Qrişaşvili – "Sayat-Nova").*

(ardı gələn sayda)

*Gürcü dilindən tərcümə edən:*
**Mirzə MƏMMƏDOĞLU**

AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ

# KÜÇƏ MUSİQİÇİSİNİN BİR GÜNÜ

Essendə küçə musiqiçisi – skripkaçı bizim işlədiyimiz məkanın tam qarşısında dəzgahını qurur. Dəzgah deyəndə də yekə çıxır. Bir açılıb yığılan kətil, bir stul, bir də skripka. Adam ədəb-ərkanla kətili açıb skripkanın futlyarını onun üzərinə yerləşdirir. Cibindən çıxardığı sikkələri açıq futlyarın içərisinə atır. Bu ötüb keçənlər üçün bir növ aldatmacadı, yemdir. Balıqçılar, ovçular heyvanları bu cür çəkiyə çəkir, aldadıb tilova, tora salmırlarmı? İndi bu yaşlı skripkaçı da bu yöntəmlə bir az qazanmaq istəyir.

Küçə sənətkarı tibbi maska ilə ağız-burnunu örtməyi də unutmur. Ağzımızda alman dəqiqliyi deyirik, başqa cür necə olmalıdır ki? Alman dəqiqliyi elə bu cür olur də. Xırda şeylərdən başlayıb böyük şeylərdə bitir.

Bizim sənətkarın küçənin cikinə-bikinə bələdliyi hər tövründən bəlli. Bəs necə, illərin təcrübəsi deyərlər buna? Küçəyə birinci dəfə ha çıxmır? Bəlkə ilk dəfə küçəyə çıxıb, nə vaxt konsert verməsini belə unudub. O, nədən başlayacağını, hansı musiqi parçalarını ifa edəcəyini, tamaşaçıların – küçədən keçənlərin diqqətini necə



cəlb edəcəyini də bilməmiş deyil. Yəqin tamaşaçıların qəlbinə yol tapmağın, onları necə riqqətə gətirməyin sirlərinə də bələddir. Önündən keçənlərin dəyişməsi ilə onun digər musiqi parçasına ustalıqla keçid etməsi, kişinin oğlunun əldəqayırma sənətkar olmadığından xəbər verir. O, hər ötüb keçənin əlini cibinə salmayacağına da əmindir. Musiqidən musiqiyə keçid küçə musiqiçilərinin istifadə etdikləri ən yayılmış yöntəmdir. Sənin ifan kiminsə qəlbindəki mərhəm duyğularla üst-üstə düşməlidir ki, ovunu bərədə yaxalaya biləsən. Yoxsa ac qalarsan, cibi boş, üzü qara qayıdarsan xarabana.

Küçə skripkaçısının musiqidən musiqiyə tez-tez keçmə fəndi bizim zurnaçıların toy evinə yeni qonağın daxil olduğunu görüncə bir əl-ayaq da satın alaraq, necə ayağa qalxdıqlarına, zurnalarını züyüllətmələrinə bənzəyir. Bəzən zurnaçının, nağaraçalanın cürbəcür bədən hərəkətləri də eyni məqsədə – beyni dumanlı toy əhlindən daha çox pul qoparmağa hesablanıb. Bunun başqa adı da yoxdur ki, mən yüksək qulluğunuza ərz edim. İpin ucunu tapmışkən, bir müşahidəmi də söyləyim: restoran toylarının dəbə minməsi və həyət toylarının aradan qalxması ilə zurnaçılarımızın biznesində də daralma baş verib, onların çörəyi də daşdan çıxmağa başlayıb. Asan çörək harda var?

Mənim alman skripkaçı ilə bizim zurnaçıları müqayisə etməm uğursuz da görünə bilər. Bənzətməm yerinə düşməsə də, bizim zurnaçı ilə alman skripkaçını birləşdirən hədəf eynidir. Onların fəaliyyət məkanları fərqli olsa da, məqsədləri tamaşaçıdan pul çıxarmaqdır.

Onu virtuoz sənətkar adlandırmaq istəyimin isə hələlik başını buraxıram. Bəlkə sonda bir qərara gəldim.

“Sparda-Bank”ın önündə, “gelati Sima” kafesinin və “Edvin Heidrich” şirniyyat dükanının beş-altı addımlığında, dükanlarının çoxluğu ilə seçilən dörd yol ayrıcında səhnə almaq, ilk baxışda buranın biznes imkanlarının genişliyindən xəbər verir. Bəlkə də yanılıram. Bütün bunlar ilğıma da bənzəyə bilər. Görək nə olur, qəhrəmanımın başına nələr gəlir. Müşahidələrim davam edir.

Küçənin öz ruhu var. Küçə sənə nə dünyanın nəhəng konsert salonlarıdır, nə də “La Skala” teatrı-zaddır. Küçənin adı küçədir. Zənginlərin yolu buradan düşən deyil. Nə də küçə musiqisinə qulaq asıb, əllərini ciblərinə salan deyillər. Həm də onlar özlərini yüksək zövq sahibi hesab edir, öz ağılları ilə küçə musiqisini düşük, bayağı hesab edirlər. Bəlkə də onlar doğru düşünürlər. Üstəgəl, pulu qazanmayıblar ki, hər yoldan ötənin cibinə qoysunlar. Zənginlər az, kasıblarsa çox.

Yaşlı skripkaçı illərin sınağından çıxmış skripkasını köksünə sıxıb, kamanəsini tellərin üzərinə sürtür. Ətrafa inilti dolu bir səs yayılır. Ötüb-keçənlər qəfil səslənən musiqidən diksinən kimi olurlar. Sonra hamı heç nə olmamış kimi işinin-gücünün dalınca gedir.

Skripkaçının repertuarı zəngindir. Klassik musiqi parçalarından tutmuş folklor nümunələrinədək. Sənətkar ki, sənətkar. İşinin ustası. Beləsi əminliklə deyə bilər: “alma, heyva, nar məndə, hər nə desən var məndə”.

O, müştəri tutmaq üçün bütün məharətini işə salır.



Bu, təkcə musiqi bacarığını deyil, həm də səhnə mədəniyyətini özündə ehtiva edən kompleks hərəkətlərin cəmidir. Hər musiqi parçasından sonra, kiçik fasilədən öncə tamaşaçılara təzim etməyi də yaddan çıxarmır.

Müştəri də yoxdur. Kimsə onun ifasının maddi qarşılığı ola biləcək pulun ucunu göstərmir. Skripkaçı ötüb keçənləri, onun ifasına laqeyd yanaşanları qınamır da. Arada ola bilsin ki, onlara haqq da qazandırır. İlləri yola vermiş sənətkar hamının bir əlli, bir ətəkli olduğunu da düşünür. Hərənin özünə yetən dərd-azar yiyəsi olduğunu da bilir. Amma bunlara rəğmən bir az qazanmağın heç də pis olmayacağını beynindən keçirir.

Aclıq da bir yandan. Hələ siftə də yox.

Ayağa qalxıb, gücünü toplayaraq, şən bir parça ifa edir. Və musiqi sonlanır. İki-üç nəfər əl çalır, eyni vaxtda onun futlyarına metal sikkə atanlar çoxalır. Bunu atılan sikkələrin cingiltisi də təsdiqləyir. Baxmadan da bilir. O, uzun illər ərzində özünü tox tutmağı da öyrənib. Bir-birinə dəyən sikkələrin cingiltisi bu an dünyanın ən gözəl musiqisi kimi səslənir. Metal cingiltisi onun üçün minlərlə tamaşaçının alqışından daha əzəmətli təsir bağışlayır. Bu dəfə bəxt üzünə gülmüşdü.

Bu da virtuozluq. Sonunda ovu yaxalayır. Qoca Santiaqo istəyinə çatır. Dənizi – küçəni ram edir.

Fasilə vermək, hətta nahar da etmək olar.

Küçə musiqiçisi futlyardan bir neçə sikkə götürüb qarşıdakı “Edvin Heidrich” şirniyyat dükanına girir.

Az sonra əlində hamburger dükanın qarşısında görünür və qalib addımlarla dəzgahına yaxınlaşır.

*Afiq MUXTAROĞLU*
**Almaniya, Essen**

## TBİLİSİDƏ VƏ İMERETİ BÖLGƏSİNDƏ MƏHDUDİYYƏTLƏR TƏTBİQ OLUNACAQ



Oktyabrın 16-dan Tbilisidə və İmereti bölgəsində restoran və bütün əyləncə mərkəzləri saat 22:00-dək fəaliyyət göstərəcək. Bu barədə baş nazir Giorgi Qaxaria bildirib.

Baş nazir bu məhdudiyyətlərin koronavirus infeksiyasının yayılmasını azaltmağa imkan verəcəyini deyib.

O qeyd edib ki, yaxın günlərdə ölkədə COVID-19-a sutkalıq yoluxma sayının 1 000-i ötəcəyi gözlənilir.

## ÖLKƏYƏ QAYIDAN GÜRCÜSTAN VƏTƏNDAŞLARI ÜÇÜN KARANTİN QAYDALARI DƏYİŞDİ



Baş nazir Giorgi Qaxaria bildirib ki, xaricdən vətənə qayıdan Gürcüstan vətəndaşlarının PCR testinin cavabı olacaqsa, onlar karantinə alınmayacaqlar.

Baş nazirin sözlərinə görə, həmin vətəndaşlar 12 günlük özünütəcrid rejiminə keçməli olacaqlar və bu tələb mütləq yerinə yetirilməlidir.

## BEYNƏLXALQ VALYUTA FONDU: 2021-2025-Cİ İLLƏRDƏ GÜRCÜSTAN İQTİSADİYYATI REGİONDA ƏN YÜKSƏK TEMPLƏ BƏRPA OLUNACAQ



Beynəlxalq Valyuta Fondunun (BVF) yeni proqnozuna əsasən, 2021-2025-ci illərdə Gürcüstan iqtisadiyyatı Avropada və regionda ən yüksək templə artacaq. BVF-nin qiymətləndirməsinə görə, 2021-ci ildə iqtisadiyyat 5% artacaq, 2021-2025-ci illərdə Gürcüstanın iqtisadi artımı orta hesabla 5,5% olacaq. Lakin bu orta müddətli proqnoza gələcəkdə dəyişiklik edilə bilər.

BVF-nin yeni qiymətləndirməsinə görə, Gürcüstan iqtisadiyyatı 2020-ci ildə 5% azalacaq ki, bu da Fondun aprel ayında təxmin etdiyi rəqəmdən bir faiz çoxdur. 2021-ci ildə proqnozlaşdırılan 5% artım isə o deməkdir ki, Gürcüstan iqtisadiyyatının həcmi 2021-ci ildə 2019-cu ilin səviyyəsinə qayıtmalıdır.

Müqayisə üçün: region ölkələrində iqtisadi artım proqnozu belədir:

Azərbaycan – 2020-ci ildə azalma 4%, 2021-ci ildə bərpa - 2%;

Türkiyə – 2020-ci ildə azalma 5%, 2021-ci ildə bərpa - 5%;

Qazaxıstan – 2020-ci ildə azalma 2,7%, 2021-ci ildə bərpa - 3%;

Ukrayna – 2020-ci ildə azalma 7,2%, 2021-ci ildə bərpa - 3%;

Rusiya – 2020-ci ildə azalma 4,1%, 2021-ci ildə bərpa - 2,8%;

Belorusiya – 2020-ci ildə azalma 3%, 2021-ci ildə bərpa - 2,2%;

Ermənistan – 2020-ci ildə azalma 4,5%, 2021-ci ildə bərpa – 3,5%;

Gürcüstanın digər makroiqtisadi parametrlərinə gəlincə, BVF-nin proqnozuna görə, 2021-ci ildə Gürcüstan hökumətinin borcu qanunla müəyyən edilmiş 60%-ə yaxınlaşacaq və 58,79%-ə çatacaq.

2020-ci ildə ümumi daxili məhsul 10,8%-ə qədər artacaq və 2021-ci ildə 8,5%-ə qədər azalacaq.

*Mənbə: bm.ge*

## ÖLKƏNİN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 14,9% AZALIB




Milli Statistika Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-sentyabr aylarında Gürcüstan 8,121 milyard ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsinə malik olub. Bu, ötən ilin eyni dövrünə nisbətən 14,9% azdır.

Son 1 ildə ölkənin ixracının dəyəri 12,1% azalaraq 2 404 milyard dollara, idxalının dəyəri isə 15,9% azalaraq 5,718 milyard dollara düşüb.

Son nəticədə xarici ticarətdə 3,314 milyard dollar kəsir yaranıb ki, bunun da ümumi ticarət dövriyyəsindəki payı 40,8%-dir.

## KORONAVİRUS GÜRCÜSTANDA YÜZ MİN NƏFƏRİ GƏLİRDƏN MƏHRUM EDİB




Gürcüstanın maliyyə nazirinin müavini Giorgi Kakauridze bildirib ki, koronavirus pandemiyası Gürcüstanda təxminən 100 min nəfəri gəlirdən məhrum edib.

Onun sözlərinə görə, builki iqtisadi geriləmə özəl sektorda fəaliyyət göstərən işçilərin sayına təsirsiz ötüşməyib.

Bununla belə, nazir müavini gələn il muzdlu işçilərin sayının artacağını və azı 20 min nəfərin gəlirlərini bərpa edəcəyini vurğulayıb.

## AZAD İQTİSADİ ZONALARIN ÖNƏMİ



Ötən yüzilliklərdən fərqli olaraq XXI əsrdə dövlətlər öz iqtisadi gücünü və nüfuzunu artırmaq üçün daima yeni yollar və metodlar axtarışında olurlar. Çünki yaşadığımız əsrdə ölkələrlə yanaşı böyük şirkətlər də öz əhatə dairələrini genişləndirməyə çalışırlar. Dövlətlərin bu mübarizədə istifadə etdiyi onların iqtisadi gücüdür. Hər bir ölkənin iqtisadi potensialı onun əhalisinin yaşayış və rifah səviyyəsini müəyyən edən əsas faktorlardan biridir. Əgər dövlət yüksək yaşayış səviyyəsinə malik vətəndaşlara sahibdirsə, bu daha yaxşı mütəxəssisləşmiş və yetişmiş kadrlar, ixtisaslaşmış insan resursları deməkdir. Daha dəqiq desək, sərhədsizləşən dünyamızda dövlətlər nəhəng şirkətlərlə rəqabətdə öz milli maraqlarını və varlığını qorumaq üçün əhalisinə daha yaxşı həyat şəraiti yaratmağa çalışırlar. Bunun üçünsə dövlətlər öz vətəndaşlarını sərhədləri daxilində saxlamaq, öz elm adamlarını ölkə maraqlarına xidmət etmələri üçün onları xarici şirkətlərin cəlbedici iş təkliflərindən yayındırmaq və yerli bazarda öz peşəkar mütəxəssislərinin ölkə maraqlarına xidmət göstərmələrini təmin etmək, yüksək texlonoji avadanlıqlarla və yüksək əmək haqlarının olduğu xüsusi ərazi və ya zonaların – **azad iqtisadi zona**ların qurulmasına ciddi cəhdlər göstərirlər.

Azad iqtisadi zonalar mərkəzi hökümətdən sərbəst öz xüsusi qanunvericiliyi olan və dövlətin gömrük-rüsum vergilərindən azad edilən yeni müasir tipli ərazi vahidləridir. Bu ərazilər əsasən dəniz limanlarının ətrafında, əsas ticarət yollarının üzərində qurulur. Azad iqtisadi zonaların bir necə növü mövcuddur. Onların sahələri adətən 50-1000 hektar arası dəyişməkdədir və bu ərazi daxilində yerləşən bütün qurum və təşkilatlar sadələşdirilmiş və ya tamamilə vergilərdən azad edilmiş olurlar. Bu cür ərazilərin fəaliyyəti nəticəsində regionda ticarət dövriyyəsi artır, investisiya və sərmayələrin yatırılması sürətlənir, məşğulluq güclənir, yeni iş yerləri açılır, milli iqtisadiyyatın dünya iqtisadiyyatı sisteminə inteqrasiyası sürətlənir, ixtisaslı kadrların təhsil və peşə təcrübələrinin artırılması imkanları genişlənir, texniki mərkəzlər, elmi araşdırmalar istehsala cəlb edilir.

Hazırda bu cür zonaların yerləşdiyi bir çox ölkə mövcuddur və onların ixrac-idxal proseslərinin 70-80%-i bu ərazilərdən keçməkdədir.

Ölkəmizdə bu cür azad zonanın yaradılması ideyası 2008-ci ildə ortaya çıxdı və bu ərazinin Poti şəhər limanında qurulması qərara alındı. Təbii liman şərtlərinə görə Potinin Batumi şəhərindən daha əlverişli olması ona olan maraq dairəsini də genişlətdi və elə həmin il BƏƏ yatırım inverstorlarından biri bu azad zonanın 49 illik müqavilə əsasında 51% hissəsini satın alaraq Poti ərazisində azad sənaye-inkişaf fəaliyyətlərinə başlayacaqlarını bildirmişdilər.

Cəbubi Qafqazda bu cür sadəcə iki azad zona mövcuddur. Bu zonaların sayının az olmasına baxmayaraq artıq 10 ilə yaxındır ki, aktiv olan bu zonalardan biri Gürcüstanda (Poti limanında), digəri isə Ermənistanda (Gümrü şəhərində) fəaliyyət göstərir. Qafqazda qonşu dövlətlərlə müqayisədə daha geniş iqtisadi imkanlara malik olan Azərbaycanda isə bu cür zonalar buiлədək mövcud deyildi. Ancaq cari ilin may ayında Xəzər dənizinin sahilində yerləşən Ələt qəsəbəsində Ələt azad iqtisadi zonasının yaradılmasına qərar verildi. Bu zonanın Qafqazda daha perspektivli və cəlbedici olacağı güman edilir. Qafqazdakı hazırkı aktiv azad zonaların isə Gürcüstan və Ermənistanın ölkə iqtisadiyyatına elə də güclü təsir qabiliyyəti demək olar ki yoxdur. Çünki bu cür ərazilərin yaradılması, lazımi təchizatla təmin edilməsi və ixtisaslaşmış yerli kadrlarla doldurulması müəyyən miqdarda əlavə vəsait də tələb edir.

Dünyanın müxtəlif ticarət qovşaqlarında yerləşən bu tip ərazilərə sahib olan ölkələr iqtisadi göstəricilərində daimi və stabil inkişaf tendensiyalarına malikdirlər. Məhz buna görə də, bizim regionda azad zonaların yaradılması və sayının çoxaldılması tək bir dövlət üçün deyil, həmçinin region üçün çox böyük imkanlar deməkdir.

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 OKTYABR
2020-Cİ İL
№014 (118)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## RİSK QRUPUNA DAXİL OLANLAR ÜÇÜN QRİP ƏLEYHİNƏ PEYVƏND PULSUZ OLACAQ



Uşaq evləri və qocalar üçün sığınacaqların sakinləri, məktəbəqədər tədris müəssisələrində xidmət göstərən heyət – bunlar ilk növbədə qrip əleyhinə peyvənd ediləcək yüksək risk qrupuna daxil olan insanlardır.

Yoluxucu Xəstəliklər Departameninin rəhbəri Xatuna Zaxaşvili ən yüksək risk qruplarını qeyd edib və bildirib ki, ilkin mərhələdə 25 min doza peyvənd vurulacaq.

Onun sözlərinə görə, ilkin mərhələdə ən yüksək risk qrupuna daxil olanlar, daha sonra isə digər risk qruplarına daxil olanlar peyvənd olunacaq: *"Bu qruplar beynəlxalq tövsiyələr əsasında müəyyən edilib. İlk 25 min doza hamilələr, dialez xəstələri və onlara xidmət edən heyət, HİV infeksiyasına yoluxmuş xəstələr, C hepatitdən müalicə olunan xəstələr, uşaq evləri və qocalar evinin sakinləri, uşaq bağçalarında xidmət göstərən heyət üçün istifadə olunacaq. Sonra isə başqa risk qruplarına da dövlət tərəfindən verilmiş qrip əleyhinə peyvənd vurulacaq".*

X.Zaxaşvili yuxarıda qeyd olunan risk qruplarına daxil olan insanları müvafiq məntəqələrə müraciət etməyə və qrip əleyhinə peyvənd olunmağa çağırıb.

**Qeyd edək ki, risk qruplarına daxil olan insanlar üçün peyvən pulsuzdur.**

*Mənbə: etaloni.ge*

## DÜNYA BANKI: GÜRCÜSTANDA HƏR 9-CU ADAMIN GƏLİRİ AZALACAQ, HƏR 23-CÜ ADAM İSƏ KASIBLAYACAQ



"2020-ci ildə Gürcüstanda hər 9-cu adamın gəliri azalacaq, hər 23-cü adam isə kasıblayacaq".

Bu haqda Dünya Bankı tərəfindən Avropa və Mərkəzi Asiya regionu üçün hazırlanmış iqtisadi bülletendə qeyd olunub.

Bankın proqnozuna görə, 2020-ci ildə Gürcüstanın təxminən 160 min vətəndaşı kasıblaya bilər və 400 min insanın gəliri azala bilər. Sənədə əsasən, pandemiyaya görə yaranmış iqtisadi tənəzzül 2020-ci ildə, güman ki, regionun bütün ölkələrində kasıblığı genişləndirəcək.

*"Gürcüstanın kəskin iqtisadi tənəzzülü maliyyə dəstəyi, sabit kredit artımı və pul köçürmələri ilə yavaşladı. Buna baxmayaraq, 2020-ci ildə iqtisadi artım göstəricisi, güman ki, 6 faiz azalacaq və bu, pandemiyanın başlanğıcında tətbiq edilmiş məhdudiyyətləri, iş yerlərinin azalmasını, pandemiyaya qədər Gürcüstanın bütün daxili məhsulunun 8 faizini təşkil edən beynəlxalq turizmdə tətbiq edilmiş məhdudiyyətləri təsvir edir. Təsir eləcə də sosial baxımdan kəskin olacaq. 2020-ci ildə Gürcüstanda təxminən 160 000 vətəndaş kasıblaya, 400 000 insanın isə gəliri azala bilər. Güman ki, iqtisadiyyatın artımı 2021-ci ildə 4 faizə çatacaq. Pandemiya ilə əlaqədar şok aradan qalxdıqca, istehlakçı və işgüzar inam artdıqca turizm bərpa olunmağa başlayacaq",* - məlumatda deyilir.

*Mənbə: bpn.ge*

## AYGÜL İSAYEVANIN YENİ KİTABI İŞIQ ÜZÜ GÖRÜB




İqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayevanın yeni kitabı nəşr edilib. İngilis dilində, "LAMBERT" Akademik Nəşriyyatında işıq üzü görən **"Korporativ məsuliyyət: neft və qaz sektorunda dayanıqlı inkişafın çağırışları"** adlı kitab sayca müəllifin 2-ci kitabıdır.

A.İsayevanın "Yeni Yol"a verdiyi məlumata əsasən, kitabda neft və qaz sektorunun qarşılaşdığı davamlılıq, korporativ sosial məsuliyyət, sektorun dayanıqlı inkişafla bağlı uğurlu və ya uğursuz olması, tənzimləyici orqanların, o cümlədən sənayenin özünün sektorda dayanıqlılığı necə inkişaf etdirə biləcəyindən bəhs edilir.

Müəllif bildirib ki, kitab neft və qaz sektorunda çalışanlar üçün nəzərdə tutulub və kitabı həlalik "Amazon", "e-bay" və s. internet satış portallarından əldə etmək olar.

Qeyd edək ki, Aygül İsayeva Qardabani rayonunun Kosalı kəndində anadan olub. O, Beynəlxalq Qafqaz Universitetinin Assosativ Professorudur.

## SENTYABRDA GÜRCÜSTANA SƏYAHƏT EDƏNLƏRİN SAYI 93,6% AZALIB



Gürcüstanın Milli Turizm Administrasiyası tərəfindən yayımlanmış statistikaya əsasən, 2020-ci ilin sentyabr ayında Gürcüstana ümumilikdə 50 499 beynəlxalq səyahətçi gəlib. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə **93,6%** azdır.

**Sentyabrda ən çox – 18 540 səyahətçi qonşu Türkiyədən gəlib.** Gürcüstana gələnlərin çoxu isə ölkəyə Kazbeki və Sarpi sərhəddindən daxil olub.

Səyahətçilərin 88%-i quru yolla, 10%-i hava yolu ilə Gürcüstana daxil olub. Dəmir yolu və dəniz nəqliyyatı ilə Gürcüstana səyahət edənlər isə 2% təşkil edib.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANDAN QIZILIN İXRACI ARTIB

Milli Statistika Xidmətinin məlumatına görə, qızıl Gürcüstanın 10 ən böyük ixrac məhsulu arasında yer alıb. Belə ki, cari ilin yanvar-avqust aylarında 2019-cu ilin analoji dövrü ilə müqayisədə qızılın ixracı 30,7% artıb.

Məlumata əsasən, 2020-ci ilin ilk 8 ayında Gürcüstandan 59,581 milyon ABŞ dolları dəyərində qızıl ixrac edilib. 2019-cu ilin analoji dövründə isə bu göstərici 45,595 milyon dolar təşkil edib.

**Gürcüstandan qızıl ixrac olunan ölkələrin siyahısı isə belədir:**

- İsveçrə – 57,539 milyon ABŞ dolları;
- Birləşmiş Ərəb Əmirlikləri – 1,092 milyon ABŞ dolları;
- Türkiyə – 949,6 min ABŞ dolları.

İdxala gəldikdə isə, 2020-ci ilin yanvar-avqust aylarının göstəricilərinə əsasən, Gürcüstana qızıl yalnız Fransadan gətirilib. Bu ölkədən 600 dollarlıq qızıl idxal edilib.

*Mənbə: bpn.ge*

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.